# Koronavirus (COVİD-19) pandemiyası və yeni tədris üsulu

***Təbiətin möcüzələrinə inanmamaq mümkün deyil. Sübh tezdən quşların zümzüməsi günəşi salamlayır. Günəş öz şəfəqlərini ətrafa səpdikcə həyat qaynayır, güllər açır, heyvanlar səhər havasına həsrət kimi günə başlayırlar. İnsanlar isə səhərin gözəlliyini seyr etdikcə həyata bağlılıq, yaşamaq sevinci qəlblərini riqqətə gətirir. Hətta yataqda xəstə yatanlar belə, gecənin zülmətindən, ağrı-acısından sonra gözəl səhərin açılması ilə həyatın və həyatda olmanın sevincini, ağrı-acılarını daha da azalması hissini yaşayırlar.***

Bütün dünyanı çalxalayan Pandemiya-Koronavirus inkefsiyası- COVİD-19 ölkəmizdə də əhalinin sağlamlığına mənfi təsirindən yan keçməmişdir. Ancaq ölkəmizin Prezidenti cənab İlham Əliyev COVİD-19 pandemiyasının qarşısının alınması ilə əlaqədar öncədən tədbirlər görmüş və əhalinin sağlamlığının qorunmasını diqqət mərkəzində saxlamışdır və saxlayır. Azərbaycan koronavirusla mübarizədə nümunə göstərir. Ölkə prezidentinin apardığı bütün tədbirlərin mərkəzində məhz vətəndaşların sağlamlığı dayanır.

İlham Əliyev demişdir: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir".

Yüksək yoluxuculuq formasında olan bu virusdan qorunmanın ən ümdə yolu sosial izolyasiya, insanlar arasında ünsiyyətin məhdudlaşdırılmasıdır. Bu məhdudlaşdırılma isə karantin rejiminin tətbiqidir. Bildiyimiz kimi, qabaqlayıcı tədbirlər görülən ölkələrdə virusun tüğyan etməsinin qarşısı alınıb və itkilər digər dövlətlərlə müqayisədə xeyli az olmuşdur. Bu gün koronavirusa qarşı mübarizə aparan ölkələr arasında Azərbaycanın adı birincilər sırasında çəkilir.

Fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alındıqdan sonra dərhal operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Virusun qonşu ölkələrdən gəlməsi nəzərə alınaraq yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz bağlanıldı və yalnız Azərbaycan vətəndaşlarının vətənə qayıtmalarına imkan yaradıldı. Həmçinin bütün istiqamətlərə təyyarə uçuşları dayandırıldı.

Pandemiya ilə mübarizə məsələsi ilk gündən Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Mart, aprel, may və iyun aylarında dövlət başçısının fəaliyyəti, keçirdiyi görüşlər, verdiyi qərarlar bunu təsdiq edir.

Koronavirusla mübarizə bu gün dövlət siyasətinin prioritetlərindən biridir. Bu istiqamətdə ən vacib məsələ isə ilk növbədə vətəndaşların sağlamlığıdır.

Artıq tədris ilinin sonudur. Məktəb yolları şagirdlərin və müəllimlərin ayaq izlərinə, sinif otaqları isə onların isti nəfəslərinə həsrət qaldı. Ancaq müəllimləri və dərslikləri hər an onlarla birgə oldu. Şagirdlər öz təhsilindən yayınmadı, müəllimlər isə şagirdlərinə öz bilik və bacarıqlarını tam fərqli şəkildə tədris etdilər.

Bu bütün dünyanı tacşəkilli virus-koronavirus infeksiyasının -COVİD-19-un qarşısının alınması zərurətindən irəli gələn gələcək nəslin təhlükədən qorunması üçün ən düzgün addım idi. Bildiyimiz kimi, insanlar arasında ən yaxın təmasda olan məktəbəqədər və orta təhsil müəssisələri, orta ixtisas və ali təhsil ocaqlarıdır. Bir sözlə, pandemiya dünyada təhsil sistemlərinə də təsirsiz ötüşmədi. Martın 2-də dövlət başçısı cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Nazirlər Kabineti tərəfindən COVİD-19 infeksiyasına yoluxmanın qarşısını almaq məqsədilə tədrisin, təlim-tərbiyə prosesinin dayandırılması və bununla əlaqədar bütün tədbirlərin təxirə salınması barədə qərar qəbul edildi. Həmin vaxt ölkə ərazisində bütün təhsil müəssisələrinin fəaliyyəti dayandırıldı.

Təhsilin fasiləsizliyini və davamlılığını təmin etmək məqsədi iləTəhsil Nazirliyi tərəfindən teledərslərin təşkili işlərinə başlanıldı.

Ölkənin bütün rayonlarında, xüsusilə, ucqar kəndlərdə şagirdlərin fasiləsiz və surətli internet bağlantısı ilə təmin edilməsində çətinliklər olduğu ehtimalı nəzərə alınaraq bu üsul seçilmişdi. Dövlət televiziyası bütün ölkəni əhatə edirdi. Buna görə də 2 televiziya kanalında ("Mədəniyyət" və "ARB Günəş") martın 11-dən etibarən şənbə və bazar günləri istisna olmaqla, hər gün 5-6 saat "Dərs vaxtı" yayımlanmağa başlandı. Nümayiş etdirilən bütün teledərslər sonradan sərbəst şəkildə istifadə üçün Təhsil Nazirliyinin



WWW.video.edu.az <http://WWW.video.edu.az> elektron portalında və rəsmi "facebook" səhifələrində, "Youtube" kanalında da yerləşdirildi.

Onlayn dərslər keçirilməyə başlanıldı.

Whatsapp və Microsoft Teams proqramları vasitəsilə də müəllimlərimiz könüllü şəkildə şagirdlərlə ünsiyyət qurdular. Whatsappla görüntülü 4 nəfərlə, Microsoft Teams -də 12 nəfərlə görüntülü şəkildə dərslər izah edildi, şagirdlərin hazırlığı yoxlanıldı və müəllimlə şagird arasında yaxın ünsiyyət yaradıldı və belə dərslər iyun ayının 14-dək davam etdirildi.

Müəllim hər şəraitdə müəllim olmağı bacarmalıdır. Əvvəlki təhsil sistemi ilə bu ilin demək olar ki, ikinci yarısından etibarən təhsil sisteminin fərqləri çoxdur. Müəllimin sinifdə görməyə alışdığı, ünsiyyət qurduğu şagirdlər, qarşılıqlı sual-cavab mühiti yoxdur. Məktəb, sinif otaqları boşdur. Müəllim üçün kamera və çəkiliş prosesi yaddır və yenidir. Müəllim üzbəüz şagirdlərlə ünsiyyətdə olmadan onlarla dərs keçirsə, onların dərsə hazırlığını yoxlayıb, dərslərin izahını yığcamlaşdırıb şagirdlərinə çatdıra bilirsə, xəyalən özünü onların qarşısında hiss etməyə çalışırsa-bu müəllimdən müəyyən mənada bacarıq və səbr tələb edir.

Bu üsulla dərslərin keçirilməsi və bu il qazanılan təcrübə gələcəkdə müəllimlərin peşəkarlığının artırılmasına da öz töhfəsini verəcək. Müəllimlərin metodiki bacarıqlarının inkişaf etdirilməsi üçün hər il yeni ixtisasartırma proqramlarının hazırlanması və bu təcrübənin həmin proqramların məzmununun zənginləşdirilməsi üçün bir mənbə olacaq. Müəllimlərin peşə bacarıqlarının inkişaf etdirilməsi üçün bundan sonra da bəzi məsələlərə ciddi diqqət yetiriləcək.

Müəllimin nitqinin sürətli olması, böyük məzmunu az vaxt ərzində izah etmək, bir neçə məzmunu ümumiləşdirmək, faktları qruplaşdırıb təqdim etmək bacarıqları və başqa bu kimi məsələlərlə bağlı diqqəti artırmaq və iş aparmaq lazımdır.

Koronavirus (COVİD-19) pandemiyası ölkəmizdə təhsil sistemində də təsirsiz qalmadı. Bu qəbildən Qəbələ təhsil sistemi də Prezident cənab İlham Əliyevin göstərişi ilə verilən bütün qərar və tapşırıqları dəstəklədi. Təhsildə tətbiq olunan yeni üsuldan istifadə etməklə rayonumuzun tədris müəssisələrində dərslər yeni qaydada da davam etdirildi. Onlayn dərslərin keçirilməsi öz çətinliyini biruzə versə də, şəhər, qəsəbə və kənd məktəblərində şagirdlər tədrisdən kənarda qalmadı. Teledərslər rayon məktəblərinin həyatında müstəsna rol oynadı. Həmçinin Whatsapp və Microsoft Teams-də şagirdlərlə ünsiyyət yaradıldı və onlar öz dərsə davamiyyətini onlayn üsulu ilə iyunun 14-dək davam etdirdilər. Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova ilə söhbət zamanı o, rayonumuzun bir çox rayon və kənd məktəblərinin müəllimlərinin fəallığından, pandemiyanın məktəb və müəllimlərə, eləcə də, şagirdlərimizə təsiri və onlarda bu yeni üsulun bəzi hallarda müsbət keyfiyyətlər aşıladığını söylədi. Pandemiyanın yeni başladığı bir dövrdə insanların təşviş və qorxudan uzaq olması üçün təhsil şöbəsinin kollektivi də öz fəaliyyətlərində fərqlənməyə çalışdılar. İlk növbədə ehtiyacı olan ailələrə yardımlar göstərildi, maarifləndirmə işləri aparıldı.

2019-2020-ci tədris ilində olimpiadanın rayon mərhələsində 552 nəfər şagird iştirak etmiş, onlardan 98 nəfəri zona mərhələsində iştirakçı olmaq hüququ qazanmışdır. Gərgin keçən bilik yarışmasında 8 nəfər Qəbələ məktəblisi respublika turuna vəsiqə qazanmışdır.

Mövcud vəziyyətlə bağlı ilk dəfə olaraq final mərhələ bölgələrdə keçirilmişdir. İyunun 9-da Qəbələ şəhərində keçirilən bilik yarışmasında 4 nəfər məktəbli medallara layiq görülmüşdür.

Vəndam qəsəbəsinin 1 saylı orta məktəbinin XI sinif şagirdi Zeynəb Əsgərli Azərbaycan dili fənni üzrə Qızıl medala, Mamaylı kənd orta məktəbinin XI sinif şagirdi Xalidə Ədilova biologiya fənni üzrə, Nohurqışlaq kənd məktəbinin XI sinif şagirdləri Məleykə Abuşova coğrafiya, İsmayıl Məsimov isə kimya fənni üzrə bürünc medallar qazanmışlar.

Bu il son zəngə həsrət qaldı... Məktəb də, şagirdlər də, müəllimlər də... Nə estafet mərasimi, nə də, birincilərlə onbirincilərin sevinc dolu görüşləri keçirildi. Onbirincilər buraxılış imtahanlarını karantin qaydalarına uyğun olaraq ara məsafəsi saxlamaqla verdilər. Son zəng ürəklərdə vuruldu, doğma məktəbə, sevimli müəllimləri ilə, uşaqlıq çağlarıyla son vida, gələcəyə çağırış zəngi... Bu hər an yaşayacaq onların qəlbində-təmtəraqsız, hay-küysüz, "sədası" ilə...

**Bibixanım.**

## Maarifləndirici bukletlər paylayıblar

Bu günlərdə Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə mərkəzin əməkdaşları insan hüquqları aylığı çərçivəsində "Hüquqlarını tanı" adlı maarifləndirici bukletlər paylayıblar.




Bukletlərin paylanılmasında məqsəd hər bir insanın onun mənsub olduğu irqindən, cinsiyyətindən, dilindən, dinindən, siyasi və digər baxışlardan, milli və sosial mənşəyindən, doğum və başqa hallarından asılı olmayaraq insan hüquq və azadlığına malik olmasını təbliğ edir.

## Əhali arasında maarifləndirmə işləri davam etdirilir

Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları və Qəbələ Gənclər İnkişaf və Karyera Mərkəzinin könüllüləri koronavirus pandemiyasının qarşısının alınması ilə əlaqədar rayon sakinləri ilə görüşmüş, bu pandemiyanın insanlara ağır təsiri ilə bağlı maarifləndirici söhbətlər aparmış, həmçinin, onlara qoruyucu vasitələr-maskalar, əlcəklər və s. paylamışlar. Könüllülər tənha yaşayan və yaşı 65-dən yuxarı olan rayon sakinlərilə də görüşmüş, onlara zəruri köməklik göstərmişlər. Onların bu görüş və maarifləndirmə işi sakinlər arasında rəğbətlə qarşılanmış və onlar COVİD-19 pandemiyasına qarşı qabaqlayıcı tədbirlər həyata keçirdiyi üçün Respublika Prezidentinə öz minnətdarlıqlarını bildirmişlər.

